**Azərbaycan son illər siyasi, iqtisadi, diplomatik sahələrdə böyük uğurlar əldə edərək regionun və dünyanın lider dövlətlərindən birinə çevrilmişdir. Ölkəmizin paytaxtı Bakı şəhəri hazırda faktiki olaraq dünyada ən nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi bir məkandır.**



# Müstəqil xarici siyasətimizin uğurları

*Azərbaycan müstəqil xarici siyasət yeridir. Bu siyasət milli maraqlara, ədalətə əsaslanır və bizə çoxlu dost qazandırmışdır. 2011-ci ildə Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi buna bariz nümunədir. Təhlükəsizlik Şurasına üzvlük müddətində Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə, ədalətin təmin edilməsinə mühüm töhfələr vermiş və beynəlxalq siyasi proseslərin fəal iştirakçısına çevrilmişdir.*

**Prezident İlham Əliyevin Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşündəki nitqindən**

Azərbaycan dövlətinin daxili və xarici siyasətinin əsasında ulu öndər Heydər Əliyevin prioritetlərini müəyyənləşdirdiyi, son 16 ildə isə xalqımızın sevimli lideri Prezident İlham Əliyevin uğurla davam etdirdiyi ölkəmizin milli maraqlarına xidmət edən daxili və xarici siyasət kursu dayanır.

2011-ci il oktyabrın 24-də Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlük üçün keçirilən seçkilərdə Azərbaycan 155 ölkənin dəstəyini qazanaraq, böyük tarixi uğura imza atmışdır. Bu cür böyük nailiyyətin əldə edilməsi Azərbaycan dövlətinin başçısının həyata keçirdiyi uğurlu xarici siyasətin məntiqi nəticəsidir.

Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri arasında bu mötəbər quruma qeyri-daimi üzv seçilən ilk, bütün MDB məkanında isə ikinci ölkədir. Bu tarixi hadisə onu deməyə əsas verir ki, Azərbaycan dünya siyasətindəki müxtəlif qlobal problemlərin müzakirəsinə cəlb olunmuş, regional siyasətlə yanaşı, dünya siyasətinin də əsas aktorlarından birinə çevrilmişdir.

Dünyada iqtisadi və siyasi böhranın tüğyan etdiyi bir vaxtda Azərbaycan tarixi köklərindən qaynaqlanan və həyat tərzinə çevrilmiş multikulturalizm ideyalarını ortaya qoyaraq bu siyasətin alternativinin olmadığını əyani şəkildə sübuta yetirmiş, dünyada sülhün və təhlükəsizliyin qarantına çevrilmişdir. Azərbaycanda 2016-cı ilin "Multikulturalizm ili" və 2017-ci ilin "İslam Həmrəyliyi ili" elan olunması Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi, ölkə rəhbərinin növbəti humanist addımıdır.

Ölkəmiz artıq neçə ildir ki, BMT Təhlükəsizlik Şurasının mandatı əsasında təsis edilmiş beynəlxalq sülhməramlı əməliyyatlara öz töhfəsini verir. Bundan başqa, Azərbaycan Rusiya-NATO, Rusiya-ABŞ yüksək hərbi rəhbərliyinin mütəmadi olaraq keçirilən görüşlərinə evsahibliyi edir. Bu ildən Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına rəhbərlik edir.

Qeyd etmək lazımdır ki, Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatına üzv qəbul olunmuşdur.

Qısa müddət ərzində ölkəmiz beynəlxalq hüququn norma və prinsiplərini qətiyyətlə müdafiə etməkdə böyük nüfuz qazanmışdır. Hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının 2016-cı ildə baş tutmuş XVII Zirvə görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul olunmuşdur.

Prezident İlham Əliyev Bakı Zirvə görüşündəki dərin məzmunlu, parlaq nitqində demişdir: "Bu, ölkəmizə göstərilən hörmətin, inamın və etimadın təzahürüdür. Bunu dünya ölkələrinin əksəriyyətini öz sıralarında birləşdirən Qoşulmama Hərəkatının bizim siyasətimizə verdiyi dəstək kimi qiymətləndirir və bu qərara görə bir daha təşəkkürümü bildirirəm".

Beynəlxalq təhlilçilərin fikrinə görə, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Bakı Zirvə görüşü ən yüksək səviyyədə keçirilmişdir.

Yeri gəlmişkən, "Bandunq prinsipləri" hərəkata üzv ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi məsələləri özündə ehtiva edir ki, bu da Azərbaycanın xarici siyasətinin təməl dəyərləri ilə üst-üstə düşür. Bu baxımdan heç kəsdə şübhə yoxdur ki, Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini məhz tarixi "Bandunq prinsipləri" üzərində quracaq.

Yeri gəlmişkən, Qoşulmama Hərəkatı tarixində ilk dəfə olaraq bu il Bakıda bu qurumun Gənclər sammiti keçirilmişdir. Tədbirə dünyanın 40 dövlətindən ölkəmizə təşrif buyuran gənclər iştirak etmişlər və Azərbaycan paytaxtından dərin razılıq hissi ilə ayrılmışlar.

Məlumdur ki, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli Azərbaycanın xarici siyasətinin prioritetini təşkil edir. Rəsmi Bakının uğurlu xarici siyasət kursunun nəticəsində BMT, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və digər nüfuzlu təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edən qətnamə və qərarlar qəbul etmişlər.

Təəssüf ki, bu sənədlərin icrası hələlik mümkün olmamışdır. Səbəb isə odur ki, müasir dünyada münaqişənin ədalətli həlli istiqamətində ikili standartlara yol verilir. Buna, əlbəttə, son qoyulmalıdır.

Rəsmi Bakı beynəlxalq hüququn norma və prinsiplərinə dünyanın bütün dövlətləri, o cümlədən işğalçı Ermənistan tərəfindən əməl olunması üçün əlindən gələni edir. Azərbaycan dövləti hesab edir ki, sərhədlərin güc yolu ilə dəyişdirilməsi, güclən istifadə olunmaqla ölkələrin ərazi bütövlüyünün pozulması, daxili işlərə müdaxilə yolverilməzdir.

Görünən budur ki, İrəvan minbir bəhanə və hiylə yolu ilə Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə mane olmağa çalışır. Lakin Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, işğalçı Ermənistan öz təcavüzkar siyasətindən əl çəkməsə, Azərbaycan dövləti öz ərazi bütövlüyünü ordumuzun gücü ilə bərpa edəcək.

Azərbaycanın prinsipial müstəqil siyasət yeritməsində ölkəmizin son illər əldə etdiyi iqtisadi uğurların da rolu var. Dünya Bankının 2020-ci il üzrə "Doing Business" hesabatında ölkəmiz ən islahatçı 20 ölkə sırasında yer alıb. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında hökumətin uzunmüddətli strategiyasına görə Azərbaycan dünya miqyasında 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsində isə 5-ci yerdədir.

Dövlətimizin beynəlxalq aləmdə mövqeyinin güclənməsi və beynəlxalq nüfuzunun yüksəlməsində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın misilsiz və çoxşaxəli fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Xalqımızın haqq səsinin dünyaya çatdırılması və erməni qəsbkarlarının cinayətləri haqqında düzgün və dolğun informasiyanın yayılması Azərbaycanın birinci xanımı, UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun vitse-prezidenti, "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının təşəbbüskarı Leyla xanım Əliyevanın siyasi və ictimai fəaliyyətinin prioritetini təşkil edir.

İnanırıq ki, Azərbaycan dövləti Prezident İlham Əliyevin müdrik liderliyi ilə daxili və xarici siyasət sahəsində bundan sonra da mühüm uğurlar əldə edəcəkdir.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2019.- 17 dekabr.- S.8.